## Bölgə xəbərləri

Yevlaxın Aran I qəsəbəsindəki M.Pənahov adına 1 saylı orta məktəbin idman zalında çoxmübarizəli idman döyüş növləri üzrə açıq şəhər birinciliyi keçirilib. Qazax, Göyçay, İsmayıllı, Ucar və Yevlax şəhər komandalarının iştirakı ilə keçirilən yarışda 17 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşib. Qaliblər Yevlax Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

* * *

Gəncədə "Təhsil" İdman Mərkəzində uşaqlar və yeniyetmələr arasında taekvondo idman növü üzrə şəhər birinciliyi keçirilib.

Ümumilikdə 100 idmançının mübarizə apardığı yarışın məqsədi respublika yarışlarında iştirak edəcək şəhərin yığma komandasının



tərkibini müəyyənləşdirmək olub. Turnirdə "Təhsil" idman məktəbi birinci, uşaq-gənclər idman məktəbi isə ikinci yeri tutub.

* * *

Ağcabədidə rayon gənclər və idman idarəsinin dəstəyi ilə "Cəsurlar" hərbi-idman və turizm oyununun rayon birinciliyi keçirilib. 480 nəfərin iştirakı ilə keçirilən yarışda C.İbrahimov adına 8 saylı orta məktəbin komandası birinci, M.Aranlı adına 11 saylı məktəbin kollektivi ikinci, R.İbrahimov adına Nəcəf Qulubəyli kənd tam orta məktəbinin komandası isə üçüncü yerə sahib olublar.

* * *

Şəkidə ümumtəhsil məktəbləri arasında voleybol üzrə şəhər birinciliyi keçirilib. Ümumilikdə, 180 idmançının iştirakı ilə keçirilən yarışın məqsədi perspektivli idmançıları aşkar edib zona komandasına cəlb etməkdir. Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə Şəki şəhəri 7 saylı orta məktəbin komandası birinci, 9 saylı məktəbin kollektivi ikinci, 10 saylı məktəbin şagirdləri isə üçüncü yerə sahib olublar.

* * *

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Daxili Qoşunlarının "N" saylı hərbi hissəsində "Cəsurlar" hərbi idman və turizm oyunu üzrə yarış keçirilib. 350-dən artıq yeniyetmənin iştirakı ilə keçirilən yarışın məqsədi orta məktəb şagirdlərini hərbi idman oyunlarına cəlb etməkdən ibarət olub. 11 saylı məktəbin komandası turnirin qalibi elan edilib. 29 saylı məktəbin kollektivi ikinci, 15 saylı məktəbin şagirdləri isə üçüncü pillədə qərarlaşıblar.

* * *

Daşkəsən şəhərindəki Səməd Vurğun adına 4 saylı tam orta məktəbin idman zalında ümumtəhsil məktəblilərinin komandaları arasında voleybol üzrə rayon birinciliyi keçirilib. Yarışın məqsədi rayonda voleybol idman növünün inkişaf etdirilməsi, bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması olub. Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə Ə.İsmayılov adına Quşçu kənd tam orta məktəbinin komandası birinci, S.Vurğun adına 4 saylı orta məktəbin komandası ikinci, İ.Nəsimi adına tam orta məktəbin komandası isə üçüncü yerə layiq görülüblər. Qaliblər gənclər və idman idarəsi tərəfindən mükafatlandırılıblar.

* * *

Ağsu şəhərinin Məmmədəmin Rəsulzadə küçəsində yeni idman kompleksinin inşasına başlanılıb. Tikintinin inşası üçün 0,4 hektar torpaq sahəsi ayrılıb. Kompleksdə 6 idman zalı olacaqdır ki, bu zallarda yeniyetmə və gənclər idmanın bir sıra növləri, o cümlədən sərbəst güləş, taekvondo, üzgüçülük və s. məşğul olmaq imkanı əldə edəcəklər. İdman kompleksinin cari ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulub.

* * *

Sumqayıtdakı "Alüminiumçu" idman evində 18-20 yaşlı sərbəst güləşçilər arasında 5 mart - Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yarış keçirilib. Yarışda 70-dən artıq gənc idmançı qalib adı uğrunda mübarizə aparıb.

Turnirdə Kənan Ağamalıyev (46 kq), Pərviz Musayev (50 kq), Murad Mustafayev (55 kq), Kənan Quliyev (60 kq), Tural Əhmədov (66 kq), Elşən Alxanov (74 kq), Ənvər Xəlilov (84 kq), Nurlan İbrahimov (96 kq) və Elvin Məşədiyev (120 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.



İslandiyanın paytaxtı Reykyavik şəhərində ənənəvi "Reykyavik Open 2013" beynəlxalq şahmat turniri başlayıb. Turnirdə Azərbaycanı beynəlxalq qrossmeysterlər Gülnar Məmmədova və Türkan Məmmədyarova təmsil edirlər.

## "Reykyavik Open 2013" - zəriflərin intellekt mübarizəsi

Birinci turun nəticələrinə görə G.Məmmədova Argentina şahmatçısı Eduardo Bauza Mercereyə, T.Məmmədyarova isə İslandiya şahmatçısı John Ontiverosa qalib gəliblər. Qeyd edək ki, 33 ölkədən 227 şahmatçının iştirak etdiyi beynəlxalq festival fevralın 27-dək davam edəcək.

## Fransada sərrast nəticə



Fransada güllə atıcılığı üzrə beynəlxalq turnir keçirilmişdir.

Turnirdə Azərbaycan millisi pnevmatik tapançadan atəşaçma yarışlarında dörd medal qazanıb.

Təmsilçilərimizdən Ruslan Lunov bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Müxtəlif məsafələrə atəşaçma yarışlarında İradə Aşumova iki gümüş medal qazanıb.

Yeniyetmələrin yarışında isə Urfan Axundov bürünc medalla kifayətlənib.

## Azərbaycan təmsilçisi Kann festivalında



Fevralın 24-də Fransanın Kann şəhərində 27-ci beynəlxalq şahmat festivalı başlayacaq. Yarışda Azərbaycanı qrossmeyster Eltac Səfərli təmsil edəcək.

Martın 3-dək davam edəcək festivalın qalibi 2,200 avro dəyərində mükafat qazanacaq.

## "Metro" "rabitədən" geri qaldı

Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının yaradılmasının 20-ci ildönümü münasibəti ilə keçirilən voleybol yarışına yekun vurulub. 6 komandanın qatıldığı turnirdə qalib adını "Aztelekom" komandası qazanıb. Metropolitenin yığması ikinci, Azərbaycan Texniki Universitetinin komandası isə üçüncü yerdə qərarlaşıb. Qalib və mükafatçılara fəxri fərmanlar və mükafatlar verilib.

## Rinqdə Azərbaycan zəfəri

İranın Xoy şəhərində boks üzrə beynəlxalq turnirdə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən ezam olunmuş Azərbaycan komandası da iştirak etmişdir.

Turnirdə idmançılarımız 7 çəki dərəcəsində qüvvələrini sınamışlar.

Yarışlarda Xəyyam Məmmədov (56 kq) və Hüseyn Qasımov (81 kq) çıxış etdikləri çəki dərəcələrində birinci yerləri tutmuşlar.

Azərbaycanın digər təmsilçisi - İlkin Seyfəddinov isə "Ən yaxşı məşqçi" adına layiq görülüb.

## "Dördlər finalı"nın bileti satışa çıxarılıb

Xəbər verdiyimiz kimi, voleybol üzrə Çempionlar Liqasının "Dördlər finalı" Türkiyənin İstanbul şəhərində keçiriləcək.

Burhan Fələk voleybol salonunda keçiriləcək yarışın biletləri artıq satışa çıxarılıb. Belə ki, tamaşaçılar turniri birbaşa izləmək üçün ən azı 20 Türkiyə lirəsi ödəməli olacaq. Ən baha biletin qiyməti isə 100 lirədir.

Qeyd edək ki, 1/3 final mərhələsində Kazan "Dinamo"sunu məğlub edən "Rabitə" ölkəmizi bu yarışda təmsil edəcək. Təmsilçilərimiz yarımfinal mərhələsində İtaliya çempionu "Yamamay"la üz-üzə gələcək. Digər cütlükdə isə "Qalatasaray" və "Vakıfbank" qarşılaşacaq.

*Şahmat*

# Həlletmə üzrə Dünya kuboku

***Fevral ayı ənənəvi olaraq, Moskvada şahmat məsələlərinin həlli üzrə Dünya kuboku ilə əlamətdardır. Yarış Moskva Open ilə eyni yerdə Rusiya Dövlət Sosial Universitetinin binasında keçirildi. Çox heyiflər olsun ki, bu dəfəki yarış şahmatçılarımız üçün ilk günlərdən problemlərlə başladı, təşkilatçıların səhvi üzündən üç dəfə - bir dəfə hoteli, iki dəfə isə otaqları dəyişməli olduq. Ötən ilki Dünya kubokunda uğurlarımızı nəzərə alaraq, bu çətinliklərə yumor hissi ilə yanaşmağı üstün tutduq.***

Bu ilki Dünya kuboku əvvəlki yarışlardan çox güclü heyəti ilə seçilirdi. Dünyanın bir nömrəli komandası, dəfələrlə Avropa və dünya çempionları Polşa yığması tam heyəti ilə (K.Piorun, P.Murdiza, A.Mista) təşrif buyurmuşdu. Rusiya həllçiləri arasında dünyanın iki nömrəli həllçisi G.Evseyev, dünya və Avropa çempionatlarının mükafatçıları Andrey Selivanov, Anatoliy Mukoseyev, Evgeniy Fomiçev, ukraynalı Avropa çempionları Valeriy Kopıl və A.Solovçuk, litvalı istedadlı və gənc həllçi M.Limontas qalib adına əsas namizədlərdən sayılırdılar. Ölkəmizi bu yarışda Rusiya mətbuatının qeyd etdiyi kimi, hər şeyə qadir olan çox güclü, lakin qeyri stabil komanda təmsil edirdi: Misrətdin İskəndərov (Sumqayıt), Ramil Cavadov (İsmayıllı), Araz Alməmmədov (Qəbələ), Zaur Məmmədov, Lütfiyar Rüstəmov (Bakı) və komandanın baş məşqçisi İlham Əliyev (Sumqayıt).



Yarışın baş hakimi səlahiyyətləri bu dəfə tanınmış şahmat bəstəçisi və həllçisi Aleksandr Ajusinə (Rusiya) etibar edilmişdi. Təşkilatçıların müraciəti ilə bu sətirlərin müəllifi də hakim kimi (baş hakimin müavini) çıxış etdi. Bu beynəlxalq həlletmə yarışlarında hakim kimi ikinci çıxışım idi, ilk dəfə 2008-ci ildə Antalyada (Türkiyə) keçirilən Avropa çempionatında baş hakimin müavini olmuşam.

Qeyd etmək lazımdır ki, Sumqayıt şahmatçısı Misrətdin İskəndərovun son illər çox yüksək nəticələr göstərərək dünya həlletmə yüzlüyünə daxil olması, son Avropa çempionatında (Kiyev, Ukrayna) şəxsi hesabda 6-cı, dünyada isə (Kobe, Yaponiya) 8-ci olması onun bu yarışda da qaliblər arasında olmasına ümid verirdi. Yarış dörd turdan ibarət idi, hər turda 90 dəqiqə ərzində altı tapşırıq təqdim olunurdu.

Qalib adını 35 iştirakçı arasında 120 mümkündən 96 xal toplayan Georgi Evseyev (Rusiya) qazandı, 2-ci 95 xalla Avropa və dünya çempionu Kasper Piorun (Polşa), 3-cü isə 87 xalla, dünya reytinq siyahısına 2800 balla başçılıq edən Piotr Murdzia (Polşa) oldu. Ölkəmizin şahmat həllçilərinin nəticəsinə gəldikdə qeyd etmək lazımdır ki, son illər gənc idmançılarımız öz uğurları ilə daha təcrübəli həllçilərimizi geridə qoyurlar, bu dəfə də belə oldu. İdmançılarımız arasında ən yaxşı nəticəni 69 xalla 12-ci yeri tutan Zaur Məmmədov göstərdi. Ötən dünya kuboklarında dörd və beşinci yerləri tutan R.Cavadov bu dəfə 65 xalla (360 dəq) 15-ci oldu. Əsas ümidimiz olan və 3-cü turdan sonra 4-cü yerdə gedən M. İskəndərov isə, son turda 30 mümkün xaldan yalnız 8 xal toplayaraq, 62 xalla 18-ci yeri tutdu. A.Alməmmədov 62 xalla 19-20-ci, L.Rüstəmov isə 55 xalla 24-cü oldu.

Dünya kubokunun 160 min rubldan ibarət mükafat fondu 12 qalib arasında bölüşdürüldü.

### İ L K   N Ə Ş R

*942. Zoltan Labai (Slovakiya)*



*#2 (2 gedişə mat)*

*943. Aleksandr Tsaplin və Rauf Əlövsətzadə (Ukrayna-MFS, ABŞ)*



*#3 (3 gedişə mat)*

*944. Leonid Makaronez (İsrail)*



*#3* (3 gedişə mat)*

*945. Richard Becker (ABŞ)*



*Uduş (+)*

*946. Iuri Akobia və Mario Garcia (Gürcüstan, Argentina)*



*Uduş (+)*

*947. Mixail Zinar (Ukrayna)*



*Uduş (+)*

**930. Aleksandr Tsaplin (Ukrayna, MFS)** 1.Vd8!. **931. Süleyman Abdullayev (Bakı)** 1.Vg5!. **932. Aydan Hüseynzadə (Qəbələ)** 1.Fe5!. **933. Petr Novitski (Ukrayna)** 1.Ta4!. **934. Araz Alməmmədov (Vəndam, Qəbələ)** 1.Şc2! [2.bxa7 Şa3 3.Va5#], 1...axb6 2.Vc4+ Şa3/a5 3.Va4#, 1...a6 2.Vc4+ Şa3 3.Va4#, 2...Şa5 3.Vc5#, 1...a5 2.Vc4+



Şa3 3.Va4#. Vəlixanov mövzusu miniatür formada. **935. Leonid Makaronez (İsrail)** 1.Tg3! (2.Tg4+ e4 3.Te4#), 1...e4 2.Ab3+ Şd3 3.Td5#, 1...d5 2.Ac2+ Şc4 3.Tc3#, 1...d6 2.Ta4+ Şc5 3.Tc4#. 936. Evgeniy Fomiçev (Rusiya) 1.e6! (2.Ab5+! (Af3+?, Ac2+?) Şf5 3.Vd5#), 1...fe6 2.Af3+! (Ac2+?, Ab5+?) Şf5 3.Vxf4#, 1...g5 2.Ac2+! (Ab5+?, Af3+?) Şf5 3.Ve4#. **937. Vidadi Zamanov (Göyçay)** 1.Tc6! (2.Fc3#), 1...Fxc6 2.Ac4+ Şd5 3.Ab2+ Şe5 4.Ad3#, 1...Txc6 2.Vxf3 Tcc1/Tc2/Tc7/Tc8 3.Txf5+ Şd4 4.Ve3#, 3...Axf5 4.Vf4#, 2...Tc5 3.Txf5+ (3...Şd6 4.Axe8#, 3...Axf5 4.Vf4#) 3...Şd4 4.Ve3#, 1...dxc6 2.Ac4+ Şd5 3.Ab2+ Şe5 4.Ad3#, 1...Tc1 2.Vxf3 Fxc6 3.Txf5+ (3...Axf5 4.Vf4#) 3...Şd4 4.Ve3#. **938. L.Lyubaşevskiy (İsrail), V.Xupçenko, V.Şevçenko (Ukrayna)** 1.Şe7 Şxb7 2.Şd7 a6 3.Fd5+ Şa7 4.Şc6 Şa8 5.Şb6#. **939. Marcel Dore (Fransa)** 1.Ag3! A) 1...Fd3! 2.Ah5 Fg6! 3.Af6! (4.Ad5 və 5.Ac7#, tematik oyun 3.Ag7? Ff7! z ) 3...Ff7! z 4.Şg7! z F~ 5.Ad5 (e8) və 6.Ac7#, B) 1...Fg6! 2.Ae2 Fe8 (f5)! 3.Ad4! (4.Ae6 (b5) və 5.Ac7#, tematik oyun: 3.Af4? (4.Ad5 (e6) Ff7 (e6)! və 5.?) 3...Fd7! z 4.Şg7! z F~ 5.Ab5 (e6) və 6.Ac7#. 940. Vidadi Zamanov (Göyçay) 1.Tf7! (2.Ac4+ Şd5 3.Td6#), 1...Axc6 2.Af3+ Şd5 3.Fc4+ (A) Şe4 (3...Şd6 4. Fc5#) 4.Ad2+ (B) Şe5 5.f4+ (C) Şd6 6.Fc5# (D), 2...Şd6 (2...Şe6 3.Fc4+ Şd6 4.Fc5#) 3.Fc5+ (D) Şd5 (3...Şe6 4.Fc4#) 4.Fc4+ (A) Şe4 5.Ad2+ (B) Şe5 6.f4# (C), 1...axb5 2.Ac4+ bxc4 (2...Şd5 3.Td6#) 3.Tc5+ Şd6 (3...Şe6 4. Fxc4+ Şd6 5.Ff4+ Te5 6.Fxe5#) 4.Ff4+ (A) Te5 (4...Şe6 5.Fxc4#) 5.Fxe5+ (B) Şe6 6.Fxc4# (C), 3...Şe6 4.Fxc4+ (C) Şd6 5.Ff4+ (A) Te5 6.Fxe5+ (B), 1...Fxf7 2.Af3+ Şd5 3.Fc4+ Şe4 4.Ad2+ Şf5 5.Tf6+ (A) Şe5 6.f4# (B), 4...Şe5 5.f4+ (B) Şf5 6.Tf6# (A). 941. Pavel Arestov (Rusiya) 1.Fd6+! Şxd5 2.Fg8+ Şc6 3.Tc4+ Şb6! 4.Fc5+! Şxa6 5.Txc3 Ta8+ [5...f1V 6.Fc4+ əsas variant] 6.Şc7 f1V 7.Fc4+ Vxc4 8.Txc4 Ff4+ 9.Ad6! c1V 10.Ta4+! Fxa4 pat.

***İ. Əliyev (Sumqayıt)***
***Beynəlxalq hakim***

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

Olimpiya dünyası

Baş redaktor:
M.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6100 nüsxə ilə çap edilir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-74-09; 564-90-49; 564-90-54
*Faks:* 564-74-19